## ● Təranə Arifqızı

### Dərdlərin Yuxusu Yox

Məkan böyük Türkiyə sakit, dəhşətli gecə
İl iki min iyirmi üç hər kəs yatır sakitcə.

Fevralın altısıdır dörd on yeddidi zaman
Ayrılır yer yerindən ölüm- qaranlıq duman.

Daş altından boylanan çarəsizlik, qorxudu.

Evlər üyüdülmüş dən yersə, yer boyda sacdı
Tanrının əli açıq torpağın gözü acdı.

Pərdələr pəncərəsiz otaqlar divarsızdı
Hərdən dillənir həyat ölüm necə arsızdı.

Donmuş üzlər danışır həyat- ölüm qol-boyun
Qaranlıqdan işığa yatan da var yol boyu.

Yumşaq yataqlarından insanları qopardın
Daş altında yuxuya Tanrı, özün apardın.

Nələr olur?- soruşan körpə, nələr olmadı
Həyatın alt- üst olub, daş-daş üstə qalmadı.

Harda anam sualın çox insana sözü var
Axtarıb tapmaq üçün yer altı, göy üzü var.

Məsumların önündə günahkardı böyüklər
Bağışla məni, körpə sənə ağır bu yüklər.